*UOT: 341*

# İnsan hüquqları kontekstində insan hüquqlarının kobud və kütləvi pozuntusu halları

**Xəyalə Kələşova,**
**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin böyük elmi işçisi (Azərbaycan).**
E-mail: xayala_kalashova@yahoo.com

**Xülasə**

Aydındır ki, insan hüquqlarının qorunması və başa düşülməsi əsasən milli səviyyədəki inkişaf və mexanizmlərdən asılıdır. Milli səviyyədə mövcud olan qanunlar, siyasətlər, prosedur və mexanizmlər hər bir ölkədə insan hüquqlarının təmin olunması üçün əsasdır. Buna görə də, insan hüquqlarının milli konstitusional və hüquq sistemlərinin tərkib hissəsi olması, ədalət mütəxəssislərinə insan hüquqları standartlarının tətbiqi ilə bağlı təlim keçilməsi, insan hüquqlarının pozuntularının pislənməsi və onlara qarşı sanksiyaların qəbul edilməsi vacibdir.

Hüquqlara hörmət etmək, onları təmin etmək və həyata keçirməklə bağlı dövlətin öhdəliyi əsasdır, dövlət məqsədli və ya davamlı şəkildə insan hüquqlarını pozduğu halda təşkil edilən regional və ya beynəlxalq tribunallar isə köməkçidir. İnsan hüquqlarının əhəmiyyəti onların qorunmasını təmin edən vasitələrdə daha geniş şəkildə əks olunur. Bu, yalnız insan hüquqları aktivistlərinin deyil, həmçinin, ümumilikdə bütün insanların qələbəsi hesab olunmalıdır. Bu uğur nəticəsində çoxsaylı və hərtərəfli insan hüquqları mətnləri (vasitələr) və icra prosedurları inkişaf etdirilmişdir.

**Açar sözlər:** beynəlxalq hüquq, dövlət, təcavüz, hərbi işğal, insan hüquqları, genosid, müharibə cinayətləri

**Abstact**

**Xayala Khalashova,**
**Senior Researcher on the Department " The Legal Provision of State Security" of the İnstitute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences.**

**In the context of human rights cases of gross and mass violations of human rights**

It is clear that the protection and understanding of human rights largely depends on the national level of development and Human Rights. Laws, policies, procedures and policies that exist at the national level are the basis for ensuring human rights in each country. Therefore, it is important that human rights are an integral part of the National Constitutional and legal systems, training justice professionals on the application of human rights standards, worsening human rights violations and adoption of sanctions against them.

The obligation of the state to respect, ensure and implement the rights is fundamental, while regional or international tribunals, which are organized for the purpose or in case of persistent violations of human rights, are auxiliary. The importance of human rights is more widely reflected in the tools that ensure their protection. It should be considered a victory not only of human rights activists, but also of all people in general. As a result of this success, numerous and comprehensive human rights texts (tools) and enforcement procedures have been developed.

**Key words:** international law, state, aggression, military occupation, human rights, genocide, war crimes

**Аннотация**

**Хаяла Калашова,**
**Старший научный сотрудник отдела "Правовое обеспечение государственной безопасности" Института Права и Прав человека Национальной Академии Наук Азербайджана**

**В контексте прав человека случаи грубых и массовых нарушений прав человека**

Очевидно, что защита и понимание прав человека во многом зависят от развития и механизмов на национальном уровне. Законы, политика, процедуры и механизмы, существующие на национальном уровне, являются основой обеспечения прав человека в каждой стране. Поэтому важно, чтобы права человека были неотъемлемой частью национальных конституционно-правовых систем, чтобы специалисты в области юстиции обучались применению стандартов прав человека, осуждали нарушения прав человека и принимали санкции против них.

Обязанность государства уважать, обеспечивать и осуществлять права является фундаментальной, и региональные или международные суды, учрежденные, когда государство умышленно или постоянно нарушает права человека, очень полезны. Важность прав человека в более широком смысле отражается в средствах их защиты. Это следует считать победой не только правозащитников, но и всех людей в целом. В результате этого успеха были разработаны многочисленные и всеобъемлющие тексты (инструменты) по правам человека и процедуры обеспечения соблюдения.

**Ключевые слова:** международное право, государство, агрессия, военное вторжение, права человека, геноцид, военные преступления

## Giriş

İnsan hüquqlarının kobud və kütləvi pozuntu halları arasında təcavüz ən ağır beynəlxalq cinayət hesab olunur. Təcavüzün beynəlxalq cinayət statusu və beynəlxalq fərdi cinayət məsuliyyəti doğurması hər şeydən əvvəl beynəlxalq adət hüququndan irəli gəlir. Başlıca maddi-hüquqi əsas kimi Nürnberq Tribunalının Nizamnaməsi və hökmünü və müəyyən mənada, habelə hüquqi xarakterə malik olmayan, lakin çox böyük əhəmiyyət daşıyan "Təcavüzün tərifi" haqqında BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli qətnaməsini göstərmək olar. Ümumi beynəlxalq hüquqa görə, dövlət tərəfindən törədilən təcavüzün planlaşdırılmasında, hazırlanmasında, başlanmasında və həyata keçirilməsində rəhbər və yaxud təşkilatçı kimi fəal iştirak edən və ya bu barədə əmr verən şəxs təcavüz cinayətinə görə məsuliyyət daşıyır. Təcavüz aktını yalnız müvafiq hakimiyyət səlahiyyətlərinə malik olan şəxslər törədə bilərlər. Başqa sözlə bu halda söhbət "rəhbərlərdən" və ya "təşkilatçılardan" getməlidir, bu terminlər nəinki hökümət üzvlərini, habelə hərbi iyerarxiyada, diplomatik korpusda, siyasi partiyalarda və ya işgüzar dairələrdə yüksək vəzifələr tutan şəxsləri də əhatə edir. Təcavüz aktının törədilməsində iştirak qəsdən olmalıdır və təcavüzkar plan və ya siyasət çərçivəsində bütün işin dərk edilməsilə həyata keçirilməlidir. Fiziki şəxsin təcavüz cinayətinə görə məsuliyyəti təcavüzün dövlət tərəfindən törədilməsilə sıx və üzvi surətdə bağlıdır.Əslində dövlətin törətdiyi təcavüz cinayəti şəxsin (şəxslərin) cinayət məsuliyyətinin yaranması üçün zəruri şərtdir. Bu həm də o deməkdir ki, dövlətin təcavüz törətməsi faktı müəyyən olunmasa, bu və ya digər fiziki şəxs təcavüz cinayətinə görə məsuliyyətə cəlb oluna bilməz. Digər bir tərəfdən məlum olduğu kimi, BMT Nizamnaməsinin 39 - cu maddəsinə görə təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir. Təcavüz cinayəti özündə bir neçə mərhələni ehtiva edir: təcavüz aktının törədilməsi haqqında əmr verilməsi; təcavüzkar müharibənin planlaşdırılması; təcavüzkar müharibənin hazırlanması; müharibənin başlanması; müharibənin aparılması.

## Əsas hissə

Beynəlxalq hüquqda təcavüz aktları 2 qrupa bölünür: Birbaşa təcavüz - dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisinə daxil olması, yaxud hücumu, belə müdaxilənin, yaxud hücumun nəticəsi olan hər hansı, hətta müvəqqəti hərbi işğal, başqa dövlətin ərazisinin hər hansı ilhaqı (zorla birləşdirilməsi) deməkdir. Birbaşa təcavüzə habelə başqa dövlətə qarşı bombardman, yaxud silahdan istifadə, dövlətin limanlarının, yaxud sahillərinin başqa dövlətin silahlı qüvvələri tərəfindən blokadası, dövlətin silahlı qüvvələrinin başqa dövlətin quru, dəniz, yaxud hava qüvvələrinə (donanmalarına) hücumu, başqa dövlətin ərazisində iştirakın beynəlxalq sazişlə müəyyən olunmuş şərtlərinin pozulması aiddir.

Dolayı təcavüz - dövlət tərəfindən başqa dövlətə qarşı yuxarıda sadalanan aktlara bərabər dərəcədə ciddi xarakter daşıyan silahlı qüvvə tətbiqi aktlarını həyata keçirən silahlı dəstələrin və qrupların, qeyri-nizami qüvvələrin, yaxud muzdluların göndərilməsi, yaxud onlarda mühüm iştirakdır.

Beynəlxalq humanitar hüququn ən mühüm institutlarından biri hərbi işğal hüququdur. Bu instituta aid mürəkkəb və birmənalı olmayan konvensiya qaydalarından başqa, müasir şəraitdə hərbi işğal rejimi yeni keyfiyyətlər kəsb edir, bu da silahlı münaqişələr şəraitində hüquq tətbiqi təcrübəsinə təsir göstərir. Müasir beynəlxalq hüquq ədəbiyyatı işğal rejimi problemlərinə mühüm diqqət yetirir: İ.N.Artsibasov, V.Y.Kalugin, J.Pikte, F.BuşeSolnye, F.Kalsxoven, E.David və bir çox başqa müəlliflərin əsərlərini qeyd etmək kifayətdir. Buna baxmayaraq, burada bir sıra həllini gözləyən problem hüquq tətbiqi təcrübəsində çətinliklər doğurur [9, s.303].

Hərbi işğal dedikdə bir dövlətin silahlı qüvvələrinin başqa dövlətin ərazisini (ərazisinin bir hissəsini) müvəqqəti tutması və işğal olunmuş ərazidə hərbi idarəçilik hakimiyyəti qurması başa düşülür. İşğal şəraitində mülki əhali və digər himayə olunan şəxslər xüsusilə müdafiəsizdir, buna görə də beynəlxalq humanitar hüquq bəzi məsələlərdə işğalçı hakimiyyətin azadlığını məhdudlaşdıran xüsusi tədbirlər vasitəsilə onların vəziyyətini yüngülləşdirməyə çalışır. Silahlı münaqişələr hüququnun normalarına görə, hərbi işğal hüququnun tətbiqi iki halla şərtlənir.Bir tərəfdən, 1907-ci il HK IV 42-ci maddəsinə görə, barəsində iş-


Bu gün cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər ölkəmizin həyatında çox önəmli rol oynayırlar.
Gənclərin təşəbbüsləri, onların əməyi bu gün hər yerdə görünməkdədir. Yeni nəslin vətənpərvərlik ruhunda, dövlətə sədaqət əsasında yetişdirilməsi Heydər Əliyevin xidmətləri arasında önəmli yer tutur.
İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

ğal hüququnun tətbiq oluna biləcəyi ərazi "həqiqətən düşmən ordusunun hakimiyyəti altında olmalıdır", özü də "işğal rejimi yalnız bu hakimiyyətin qurulduğu və fəaliyyət göstərə bildiyi vilayətlərə şamil olunur". Müvafiq ərazidə fəal hərbi əməliyyatların davam etməsi səbəbindən işğal ordusunun komandanlığı öz hakimiyyətini qurmağa və həyata keçirməyə qabil olmadıqda beynəlxalq humanitar hüquq işğal olunmuş ərazidən deyil, müdaxiləyə məruz qalmış ərazidən söz açır. Bu halda döyüş meydanına aid normalar, yəni silahlı münaqişələr hüququnun ümumi normaları tətbiq olunur.

Digər tərəfdən, işğal ərazilərin ələ keçirilməsindən fərqləndirilməlidir. Ərazilərin ələ keçirilməsi məğlubun qalibə tam tabe olmasını, müharibənin başa çatmasını və məğlub olmuş dövlətin suverenliyinə son qoyulmasını, onun dövlət hüquqi institutlarının ləğvini nəzərdə tutur. İşğal üçün, əksinə, məğlub dövlətin hakimiyyət strukturlarının (hətta mühacirətdə olsa belə) saxlanması və işğalçı dövlətə qarşı müqavimətin və hərbi əməliyyatların davam etdirilməsi xarakterikdir. Beləliklə, beynəlxalq hüquq təcavüzkar müharibə nəticəsində ərazinin, yaxud ərazinin bir hissəsinin özgəninkiləşdirilməsini ələ keçirmə hesab etmir, çünki bu, ius contra bellum prinsipinə ziddir. Prinsipcə ələ keçirmə yalnız təcavüzkara qarşı çıxış edən dövlət tərəfindən həyata keçirilə bilər. Hərbi işğal hüququnun əsas ideyası bundan ibarətdir ki, gələcəkdə belə ərazilərin müvafiq dövlətə asanlıqla qaytarılmasını təmin etmək üçün silahlı münaqişə dövründə işğal olunmuş ərazilərdə əvvəl mövud olmuş vəziyyət status quo ante saxlanır [5, s.304].

Beynəlxalq hüquqa görə genosid ən ağır beynəlxalq cinayət olmaqla təcavüz, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, beynəlxalq terrorçuluq kimi cinayətlərlə yanaşı sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönələn cinayətlər qrupuna aid edilir. Beynəlxalq cinayət hüququnda genosid xüsusilə təhlükəli beynəlxalq cinayət kimi dəyərləndirilir. Genosid cinayətinin tərkibi bir sıra beynəlxalq-hüquqi aktlarda müəyyənləşdirilmişdir.

Genosid cinayətinin əsas tərkib elementini zəruri niyyətin təşkil etməsi və onun dinc dövrdə törədilə bilməsi də bu əməlli digər oxşar beynəlxalq cinayətlərdən, xüsusilə də insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərindən fərqləndirir. Məhz buna görə də, genosid, Yuqoslaviya və Ruanda Tribunalları nizamnamələrində, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda və bir sıra digər sənədlərdə ayrıca beynəlxalq cinayət kimi fərqləndirilmişdir. Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, genosidin bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu mənfur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyi nəzərə alınaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə genosid hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə edilən hərəkətlərdir. Bu hərəkətlərə milli, etnik, irqi, yaxud dini qrup üzvlərinin öldürülməsi, belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi, hər hansı qrup üçün qəsdən onun tam, yaxud bir qisminin fiziki məhvini nəzərdə tutan tədbirlərin görülməsi, uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi aiddir [3, s.261].

Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (4-cü maddə), Ruanda beynəlxalq cinayət tribunalının nizamnaməsində (3-cü maddə), Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsinin layihəsində (17 - ci maddə), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (6 - cı maddə) və bəzi dövlətlərin cinayət qanunvericiliyində də təsbit olunmuşdur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103 - cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə genosid sayılır. Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Konvensiyaya əsasən genosid, genosid törətmək məqsədilə sui-qəsd, genosidə birbaşa və açıq təhrikçilik, genosidə cəhd, genosiddə iştirak etmək əməlləri cəzalandırılır. Genosid cinayətinə görə məsuliyyət universal olduğundan bununla bağlı digər dövlətlər də müvafiq tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır. Konvensiyada qeyd edilir ki, genosidi həyata keçirmiş şəxslər konstitusiyaya görə məsul şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdırlar [7, s.99].

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması sahəsində dövlətimizin ardıcıl mövqeyi bir neçə istiqamətdə aparılan işlərlə səciyyələnir. Böyük tarixi şəxsiyyət, ulu öndər Heydər Əliyevin rəhbərliyi

ilə 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarıldı. Əsas Qanunumuzun üçdəbir hissəsi məhz insan hüquq və azadlıqlarını özündə ehtiva edir. 10 fevral 1998-ci ildə Azərbaycanda ölüm hökmü ləğv edildi və beləliklə, Azərbaycan MDB məkanında və müsəlman Şərqində bu tarixi qərarı qəbul edən ilk dövlət oldu.

Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü nəticəsində ərazilərimizin 20 faizindən çoxu işğal edilmişdir. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, qadınlar, uşaqlar, qocalar dəhşətli zorakılıqla qətlə yetirilib, minlərlə insan əsir və girov götürülüb, tarixdə analoqu olmayan Xocalı soyqırımı törədilib.

Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırım siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə, kobudcasına pozulması ilə nəticələnən bəşər tarixinə böyük qanlı  faciə kimi daxil olmuşdur.Xocalı soyqırımı zamanı 613 nəfər insanın, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyulmuş, yüzlərlə dinc sakin ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailə bütünlüklə məhv edilmiş, əsir və girov götürülənlərə amansız işgəncələr verilmişdir. Bu zaman soydaşlarımızın əsas insan hüquqları, ən başlıcası isə təməl hüquq olan yaşamaq hüququ kütləvi şəkildə pozulmuşdur.

Xocalıda erməni qəsbkarları tərəfindən törədilən bu kütləvi insan qırğını ağlasığmaz qəddarlığı və işgəncələri ilə birmənalı olaraq, genosid faktıdır. Belə ki, beynəlxalq hüquqa əsasən genosid ən ağır cinayətlərdəndir. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində qeyd olunur ki, genosid insan qruplarının yaşamaq hüququnu pozmaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dəyərlərdən məhrum edir, BMT-nin məqsəd və vəzifələrinə, ümumbəşəri dəyərlərə tamamilə ziddir və dünya birliyi tərəfindən pislənir.

Genosid törətmiş şəxslərin cəzalandırılması labüddür. Konvensiyanın 5 - ci maddəsinə əsasən, iştirakçı dövlətlər genosid cinayəti törətməkdə təqsirli olan şəxslərin cəzalandırılması üçün təsirli tədbirlər görməlidirlər. Həmin şəxslər ya dövlətin ərazisində səlahiyyətli məhkəmələrdə, yaxud da, beynəlxalq məhkəmə tərəfindən mühakimə edilməlidir. Genosid cinayəti törətməkdə təqsirli bilinən şəxslərin ekstradisiyasına gəlincə isə, Konvensiyaya əsasən müqəssirlərin təhvil verilməsinə münasibətdə genosid siyasi cinayət sayılmır. Deməli, genosid cinayəti törətmiş şəxslərə sığınacaq hüququ şamil edilmir. Konvensiyanın 8-ci maddəsinə əsasən, Konvensiyanın hər bir iştirakçısı BMT-nin müvafiq orqanına BMT Nizamnaməsinin müddəalarına uyğun olaraq, onun fikrincə genosidin qarşısını almaq və ya kökünü kəsmək üçün lazım olan bütün tədbirlərin görülməsi tələbi ilə müraciət edə bilər.

Genosid cinayətinin əlamətləri BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada müəyyən edilmişdir. Xocalı soyqırımı zamanı baş vermiş cinayət əməllərinin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların kütləvi şəkildə məhv edilməsi niyyəti ilə törədilməsi onun genosid aktı olduğunu sübut edir. Azərbaycana qarşı təcavüz zamanı adı çəkilən Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Lakin təəssüf ki, Azərbaycanda dinc əhaliyə qarşı belə dəhşətli soyqırımı aktları həyata keçirilməsinə baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz hüquqi-siyasi qiymətini almamış, bu hadisəni planlaşdıranlar, təşkil edənlər və törədənlər məsuliyyətə cəlb edilməmiş, layiqli cəzalarını almamışdır. Erməni qəsbkarları tərəfindən törədilən Xocalı soyqırımı insan hüquq və azadlıqlarının ən kobud və ən qəddar şəkildə pozulmasına bir nümunədir və bu, bir çox beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə də öz əksini tapıb. Bu sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Xocalıda mülki insanların vəhşicəsinə öldürülməsi birmənalı olaraq pislənilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünə dəstək ifadə olunaraq, güc tətbiq etmək yolu ilə ərazi əldə edilməsinin BMT nizamnaməsinə və beynəlxalq hüquqa zidd olduğu bir daha vurğulanır, Xocalı qurbanlarının və onların qohumlarının onlara vurulmuş mənəvi və maddi itkilərə görə ədalətli və hüquqi əsasda təzminat almaq hüququ da tanınır [4, s.157].

Xocalıda baş verən hadisələrdə azərbaycanlıların təbii hüquqları - xüsusilə yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, mülkiyyət hüquqları kəskin şəkildə pozulmuş və tapdalanmışdır. Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi bu soyqırımda İnsan hüquq və azadlıqlarını özündə əks etdirən Cenevrə konvensiyası, BMT-nin Baş Məclisinin 10 dekabr 1948 - ci ildə elan olunan İnsan hüquqlarının Ümumi Bəyannaməsinin, "İnsan hüquqlarının ümumi və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının, BMT-nin Mülki və Siyasi hüquqlar haqqında Paktın maddələri, bu hüquqları özündə cəmləşdirən normativ aktların

maddələrində göstərilən hüquqlar Xocalı soyqırımında ermənilər tərəfindən kobudcasına pozulmuşdur.

Xocalı soyqırımında 1948-ci il 10 dekabrda elan olunan BMT-nin Baş Məclisinin İnsan hüquqlarının Ümumi Bəyannaməsinin aşağıdakı maddələri pozulmuşdur:

**maddə 2:** Hər bir şəxs dilindən, dinindən, milliyyətindən və digər səbəbdən, fərq qoyulmadan bu Bəyannamədə təsbit olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır.

**maddə 3:** Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var.

**maddə 5:** İnsan ləyaqətini alçaldan, insaniyyətlikdən kənar və qəddar hərəkətlər qadağandır.

**maddə 9:** Özbaşına həbslər, saxlanılmalar və ya qovulmalar qadağandır.

**maddə 17:** Hər bir insanın əmlaka malik olma hüququ vardır və insanın əmlakdan özbaşına məhrum edilməsi qadağandır.

İnsan hüquqlarının Ümumi Bəyannaməsi ilə yanaşı BMT Baş Məclisinin 2200A (XXI) saylı 16 dekabr 1966-cı il tarixli qətnaməsi ilə qəbul edilən və 1976-ci il 23 martda qüvvəyə minən BMT-nin Mülki və Siyasi hüquqlar haqqında Paktın da insan hüquqlarını qoruyan maddələri pozulmuşdur:

**maddə 6:** Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kəs özbaşına həyatdan məhrum edilə bilməz.

**maddə 7:** Heç kəs qəddar, insanlıqdan kənar işgəncələrə, yaxud onun ləyaqətini alçaldan davranışa, yaxud cəzaya məruz qalmamalıdır. O cümlədən, heç bir şəxs üzərində onun azad razılığı olmadan tibbi yaxud elmi təcrübə aparıla bilməz.

**maddə 8:** Heç kəs köləlikdə saxlana bilməz. Köləlik və qul ölkələrini bütün növləri qadağandır.

**maddə 9:** Hər bir insanın azadlıq və şəxsi toxunulmazlıq hüququ var. Heç kəs zorla həbs və yaxud dustaq edilə bilməz. Heç kəs qanunla müəyyən olunmuş əsaslar olmadan və müvafiq prosedurlara əməl olunmadan azadlıqdan məhrum edilməməlidir.

Bütün bunlarla yanaşı Xocalıda baş verən soyqırım aktında "İnsan hüquqlarının ümumi və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının da maddələri pozulnmuşdur:

**maddə 2:** Hər bir insanın həyat huququ qanunla mühafizə olunur. Cəzalandırılması qanunla nəzərdə tutulmuş cinayətin törədilməsinə görə məhkəmə tərəfindən çıxarılan ölüm hökmünün icrasından başqa, heç kəs qəsdən həyatdan məhrum edilə bilməz.

**maddə 3:** Heç kəs işgəncələrə, qeyri-insani rəftara və ya ləyaqətini alçaldan cəzaya məruz qalmamalıdır.

**maddə 4:** Heç kəs kölәlikdə və ya məcburi vəziyyətdə saxlanılmamalıdır.

**maddə 5:** Hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

**maddə 8:** Hər bir insan, onun şəxsi və ailə həyatına hörmət edilməsi, mənzil toxunulmazlığı və yazışma sirri hüququna malikdir [6, s. 42].

Dövlətlər belə cinayətlərdə şübhəli olan şəxsləri aşkara çıxarmaq, həbsə almaq, məhkəməyə cəlb etmək və müqəssir sayıldıqda, cəzalandırmaq məqsədilə bir-birinə yardım göstərirlər. Bir məqamı da vurğulamaq lazımdır ki, genosid cinayətinə görə məsuliyyətin meydana çıxması üçün bütövlükdə müəyyən qrupun məhv edilməsindən ibarət son nəticə tələb olunmur. Yuxarıda qeyd etdiyimiz genosid cinayətinin tərkibini təşkil edən əməllərdən birinin və ya bir neçəsinin müəyyən qrupu tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi genosid kimi qiymətləndirilir.

Cənubi Qafqaz regionunda beynəlxalq hüquqa və ATƏT-in Helsinki Yekun Aktına uyğun sivil, dövlətlərarası münasibətlər bərqərar deyil. İki ölkə arasında elan edilmədən aparılan müharibənin nəticələri bölgədə sülh və sabitliyin yaranmasına mane olur. Müharibənin bütün dəhşətlərini və ölkəyə vurduğu maddi-mənəvi zərəri təkcə statistik göstəricilərlə ifadə etmək mümkün deyil. Bununla yanaşı, Ermənistanla həmsərhəd olan rayonlarımızın iqtisadiyyatı da ciddi zərər görüb. Atəşkəsin düşmən tərəfindən davamlı pozulması həmsərhəd ərazidə yaşayan vətəndaşlarımızın hüquqlarına vurulan ziyanın təsdiqidir.

Azərbaycanın haqlı tələblərinə, bütün dünyanın təcavüzkarlıq faktını pisləməsinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirir. BMT-nin 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistanın Azərbaycana qarşı təcavüzünə hüquqi qiymət verilmişdir. Bu qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü yenidən təsdiq edilərək hərbi əməliyyatlara dərhal son qoyulması, işğalçı qüvvələrin qeyd - şərtsiz Azərbaycan torpaqlarından çıxarılması, qaçqınların doğma yurd-yuvalarına geri qaytarılması tələb edilmişdir. BMT-nin Baş Məclisi hələ 23 mart 1994 - cü ildə qəbul olunmuş Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında qətnaməsində Azərbaycanda qaçqınların və yerlərini dəyişmiş şəxslərin sayının bir milyonu keçməsini qeyd etmişdir. Prezident, Ali Baş Komandan İlham Əliyevin də çıxışlarında dəfələrlə qeyd edildiyi kimi, Azərbaycan xalqı və dövləti öz tarixi ərazilərində ikinci bir erməni dövlətinin yaradılmasına imkan verə bilməz. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda insan hüquqları və demokratiyanın inkişafına mane olan ən başlıca səbəblərdəndir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 5-ci maddəsində göstərilir: "Heç kim isgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun

ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır".

Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların şərəf və ləyaqətinin qorunması Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsasını təşkil edir. Bu istiqamətdə tədbirlər ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır."Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk", – deyən ölkə başçısının birbaşa tövsiyə və göstərişləri əsasında görülən sistematik işlər insanların hüquq və azadlıqlarının müdafiəsi sahəsində xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması və bərpası məqsədilə BMT Nizamnaməsinə uyğun olaraq, təcavüzə görə beynəlxalq sanksiyaların yuxarıda qeyd etdiyimiz iki növünün 41-ci maddəyə müvafiq olaraq, silahlı qüvvələrin tətbiqi ilə bağlı olmayan sanksiyaların və 42 - ci maddəyə uyğun olaraq, hərbi sanksiyaların tətbiqi məqbuldur. Azərbaycana qarşı təcavüz nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktını və onlara dəymiş zərərin ödənilməsi zərurətini nəzərə alaraq, insan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan təcavüz cinayətinin qarşısının alınması, məsələnin beynəlxalq təşkilatlar çərçivəsində praktik həlli və bu əmələ görə Ermənistan dövlətinin siyasi və maddi, təqsirkar şəxslərin isə cinayət məsuliyyətinə cəlb olunması birbaşa müasir beynəlxalq hüququn tələbi kimi çıxış edir [1, s.68].

6 oktyabrda isə Ermənistan Xəzər neftini Avropaya çatdıran Bakı-Tbilisi-Ceyhan boru xəttini hədəf almışdır. 09 oktyabr 2020-ci il tarixdə Moskva şəhərində humanitar atəşkəs barədə saziş imzalanmasına baxmayaraq Ermənistan tərəfindən 10 və 17 oktyabr gecəsi Azərbaycanın Gəncə və Mingəçevir şəhərləri raketlərdən atəşə tutulmuş, Gəncə şəhərində yaşayış binalarının raketlə vurulması nəticəsində 22 dinc sakin həlak olmuş, bir neçəsi uşaqlar olmaqla, 93 dinc sakin yaralanmış, 2 uşaq itkin düşmüş, yaşayış binaları dağılmışdır. 500000-ə yaxın əhalisi ilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərində məhz mülki əhalinin sıx yaşadığı məntəqələr raket hücumlarına məruz qalmışdır. Ermənistanın Gəncə şəhərində mülki əhalinin sıx yaşadığı binaları raket atəşinə tutmaqda məqsədi əhali arasında kütləvi tələfat törətmək və təşviş hissi yaratmaq, bununla da güc yolu ilə Azərbaycana aid ərazilərdən yeni mövqelər əldə etməkdir.

Bu isə insanlıq əleyhinə yönəlmiş və müharibə cinayətlərinə əsaslandığından çoxsaylı insan tələfatına səbəb olur. Bu günə qədər 270-dək mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara gətirilib, 60 mülki şəxs öldürülüb, 327-dək mülki obyekt, 1704 ev, 90 çoxmənzilli yaşayış binaları Ermənistan silahlı qüvvələri tərəfindən həyata keçirilən terror aktları nəticəsində dağıdılıb [10].

Konvensiyaya görə bu və ya digər dövlətin genosiddə məsuliyyəti barədə mübahisə, tərəflərdən birinin tələbi ilə Beynəlxalq Məhkəməyə verilir. Onu da qeyd etmək lazımdır ki, 26 noyabr 1968-ci il tarixli Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında Konvensiya imkan verir ki, törədilmə vaxtından asılı olmayaraq genosid cinayəti törətmiş məsul şəxslər istənilən vaxt cinayət məsuliyyətinə cəlb olunsunlar. Belə bir müddəa Azərbaycanın daxili qanunvericiliyində də nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müddətin keçməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə ilə bağlı 75-ci maddəsinin 5-ci bəndinə əsasən, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və bəşəriyyət əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəaları tətbiq olunmur. BMT Baş Məclisinin 3 dekabr 1973-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş "Hərbi cinayətlərdə, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkara çıxarılması, həbs edilməsi, təhvil verilməsi və cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri"nə müvafiq olaraq, hərbi cinayətlərdə və bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin məhkəmə təqibinin cəzalandırılmasının təmin edilməsinə yönəldilmiş beynəlxalq tədbirlərin görülməsinə xüsusi zərurət vardır. Hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq tədqiq edilməli, belə cinayətləri törətdikləri barəsində dəlillər olan şəxslər isə axtarılmalı, həbs edilməli, məhkəmə məsuliyyətinə cəlb olunmalı və müqəssir sayıldıqda, cəzalandırılmalıdırlar [2, s.84].

Genosiddən və ya müharibə cinayətlərindən fərqli olaraq insanlıq əleyhinə cinayətlərin universal müqavilə əsası yoxdur və onlar, əsas etibarilə, beynəlxalq adət hüququna və ya beynəlxalq tribunalların nizamnamə və hökmlərinə söykənir. İlk dəfə olaraq insanlıq əleyhinə cinayətlər Nürnberq Tribunalının Nizamnaməsinin 6-cı maddəsində"İstənilən mülki əhaliyə qarşı müharibədən qabaq və ya müharibə dövründə Tribunalın yurisdiksiyasında olan hər hansı bir cinayətlə bağlı törədilən adamöldürmə, kütləvi qırğın, kölə vəziyyətinə salma, deportasiya və digər qeyri-insani aktlar və yaxud siyasi, irqi və ya dini əsasda təqiblər" kimi təsbit olunmuşdur.

Beynəlxalq praktikanın beynəlxalq hüquq elminin sonrakı inkişafı nəticəsində insanlıq əleyhinə cinayətlərin tərkibi bir qədər genişlənmişdir. İnsanlıq əleyhinə cinayətlərin anlayışını mövcud beynəlxalq hüquq normalarına görə müəyyən etmək üçün mötəbər

beynəlxalq sənəd olan Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə olan cinayətlər Məcəlləsinin Layihəsinə müraciət etmək olar. Pozitiv hüququ özündə əks etdirən bu sənədin 18 - ci maddəsində deyilir: "İnsanlıq əleyhinə cinayət sistematik və ya geniş miqyasda törədilən hökumət və ya istənilən təşkilat yaxud qrup tərəfindən həvəsləndirilən və ya istiqamətləndirilən aşağıdakı əməllərdən hər hansı biri deməkdir: adamöldürmə, kütləvi qırğın, işgəncə, kölə vəziyyətinə salma, siyasi, dini, irqi və ya etnik motivlər üzrə təqib etmə, əsas insan hüquq və azadlıqların pozulmasını əhatə edən və əhalinin bir hissəsinin ciddi sıxışdırılmasına gətirib çıxaran, dini, irqi və ya etnik əlamətlər əsasında ayrı–seçkilik, özbaşına deportasiya və ya əhalinin məcburi köçürülməsi, özbaşına həbs etmə, zorlama və ya fahişəliyə məcbur etmə, fiziki və ya psixi toxunulmazlığa, səhhətə və ya insan ləyaqətinə ciddi zərər yetirən digər qeyri-insani əməllər, məsələn, ağır bədən xəsarəti yetirilməsi" [8, s.114].

İnsanlıq əleyhinə cinayətlərin obyektiv cəhəti olduqca genişdir və buraya müxtəlif xarakterli əməllər daxildir. Bu əməllərin insanlıq əleyhinə cinayət kimi tövsif olunması üçün 2 ümumi şərt tələb olunur:

1. əməl sistematik və ya geniş miqyasda törədilməlidir;
2. əməl hökumət və ya istənilən təşkilat yaxud qrup tərəfindən həvəsləndirilməli və ya istiqamətləndirilməlidir. Bu şərt onu bildirir ki, şəxs təkbaşına insanlıq əleyhinə cinayət törədə bilməz.

Müharibə cinayətləri termini ümumi anlayış olub, silahlı münaqişə zamanı tətbiq olunan humanitar hüquq normalarının və ya müharibə adət və qanunlarının pozuntularını bildirir. Müharibə cinayətlərinə bir sıra əməllər aiddir: qəsdən adam öldürmə, işgəncə və ya qeyri insani rəftar, o cümlədən biolji eksperimentlər, ağır əzab-əziyyət və ya ciddi xəsarət yetirilməsi, hərbi əsirin və ya mülki şəxsin düşmən dövlətin silahlı qüvvələrində qulluq etməyə məcbur edilməsi.

## Nəticə

Hüquq bizim haqlı olaraq irəli sürdüyümüz tələbdir. İnsan hüquqlarını qəbul etmək hər kəsin bu iddiaları irəli sürə bilməsini qəbul etmək deməkdir. İnsan hüquqları ideyasının əsasında dayanan iki başlıca dəyər insan ləyaqəti və bərabərlikdir. İnsan hüquqları layiqli həyat üçün vacib olan əsas standartlar kimi başa düşülə bilər, onların universallığı isə, ən azından bu sahədə, bütün insanların bərabər olması ilə bağlıdır. Bu iki inam və ya dəyər, həqiqətən də, özünü insan hüquqları ideyasına həsr etmək üçün tələb olunan hər şeyi əhatə edir və onlar mübahisəli deyil. Buna görə də, insan hüquqları mədəniyyət, hökumət və dindən dəstək alır.

Beynəlxalq hüququn hər bir subyektinin üzərinə götürdüyü öhdəliklər ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə riayət edilməsindən başlayır. Hazırda dünya birliyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə tanıyır və dəstəkləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq bəyan edib ki,"Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Yəni, Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaq".

Xalqımızın əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi ilə özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

## İstifadə olunmuş ədəbiyyat


1. Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V. İnsan hüquqları. Beynəlxalq və milli müdafiə mexanizmləri, Bakı, 2008, 1232 s.
2. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, Bakı, 2009, 234 s.
3. Hüseynov L.H. Beynəlxalq hüquq, Bakı, 2000, 368 s.
4. İbayev V. Beynəlxalq humanitar hüquq, Bakı, 2001, 492 s
5. Mehdiyev F. Nəzəriyyədə və təcrübədə insan hüquqları, Bakı, 2009, 398 s.
6. Səfixanlı A., Əliyev Z. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti, Bakı, 2003, 58 s.
7. Süleymanova E.T., Əliyev Z.H. Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan təcrübəsində təminatında Ombudsmanın rolu. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2007, 235 s.
8. Азаров А. Права человека. Новое знание. М., Общество «Знание» России, 1995, 296 с.
9. Мингазов Л.Х. Эффективность норм международного права. Теоретические проблемы. Казань, 1999, 464 с.
10. https://www.virtualkarabakh.az/az/post-item/40/150/ermenistanin-azerbaycana-herbi-tecavuzu-kontekstinde-beynelxalq-huquqi-mesuliyyetinin-bezi-meseleleri.